# Qəhrəmanlıq salnaməsi

**Azərbaycan tarixinin şərəfli və qürur duyulacaq səhifələrindən biri də 1990-cı ilin 20 Yanvar günüdür. Həmin gün dinc sakinlər qətlə yetirildi, yüzlərlə insan müxtəlif dərəcəli xəsarət aldı. O gecə xalq çaşqınlıq içində idi...**

20 Yanvarda Sovet İttifaqının ordu hissələri cəmi bir neçə saat ərzində Bakını tam nəzarətə aldı. Əslində, sovet rəhbərliyi anlayırdı ki, xalq Azərbaycana qarşı törətdiyi xain əməllərə sərt reaksiya verəcək və bu etirazlar daha da böyüyəcək. Bu səbəbdən "ədalətli qərar" bəri başdan xalqı qan gölündə boğub qorxutmaq oldu. Məlumatlara əsasən, fövqəladə vəziyyətin tətbiqi nəticəsində Sovet ordusunun hərbi qulluqçuları 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfər ölümcül yaralanmışdır. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Ümumiyyətlə isə qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomobil, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və polis nəfərləri var idi.

Məhz belə bir ağır məqamda Heydər Əliyev ayağa qalxdı. Qırğın gününün sabahı Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməklə o, "Azərbaycan tək deyil! Mən varam!" - dedi. Nümayəndəlikdəki çıxışında Ümummilli Lider sovet imperiyasını, onun ermənipərəst rəhbərlərini rüsvay etdi.

Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev 1998-ci ildə Şəhidlər Xiyabanında etdiyi çıxış zamanı 20 Yanvar faciəsinə belə qiymət vermişdi: "Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün, sizlər üçün, ailə üzvləri üçün böyük itkidir, faciədir. Ancaq eyni zamanda, onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların şəhid olduğu zaman tökülən qanı bütün xalqın qanıdır. O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq arzuları vardır..."

20 Yanvar şəhid qanları ilə yoğrulsa da, xalqı azadlığa aparan mübarizə yolu oldu. Qanlı Yanvar öz siyasi-hüquqi qiymətini isə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra - 1994-cü il yanvarın 5-də verdiyi xüsusi Fərmanla aldı.

Ulu Öndərin layiqli siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev azadlıq mücahidlərinə ehtiram və böyük hörmət göstərərək şəhid ailələrinə diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı 1990-cı ilin 20 Yanvarında sovet ordusunun xalqımıza qarşı təcavüzünün mahiyyəti, Vətən övladlarının qəhrəmanlığı barədə demişdir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq, ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

20 Yanvar - Ümumxalq Hüzn Günü böyük ehtiramla həm Azərbaycanda, həm də dünya ölkələrində yad edilir.

**Esmira ƏLƏSGƏROVA,**
**Göygöl rayonu, Quşqara kənd orta məktəbinin müəllimi.**

Respublika .- 2022.- 19 yanvar.- S.9.